**AMEA RMİ-nin "Funksional analiz" şöbəsinin 2013-cü il üçün elmi və təşkilati fəaliyyəti haqqında hesabatının qısa məzmunu**

Hesabat ili ərzində "Funksional analiz" şöbəsində "Operatorlar cəbri və ehtimal nəzəriyyəsinin bir sıra məsələlərinin tədqiqi" və "Diferensial və fərq operatorları üçün spektral nəzəriyyənin düz və tərs məsələlərinin tədqiqi" mövzuları üzrə 22 iş yerinə yetirilmişdir.

Şöbədə 27 nəfər işçi fəaliyyət göstərir. Onlardan 23 nəfəri elmi işçi olmaqla 9 nəfəri elmlər doktoru, 11 nəfər elmlər namizədi, 1 nəfər böyük elmi işçi, 3 nəfər isə elmi işçi, 4 nəfər laborantdır. 9 nəfər 0,5 ştat işçilərdir. Hər həftənin 3-cü günü saat $12^{00}$-da şöbənin elmi seminarı keçirilir. Şöbənin əməkdaşlarının əksəriyyəti müxtəlif ali məktəblərdə pedaqoji fəaliyyətlə məşğuldurlar.

Şöbə əməkdaşlarının 39 elmi işi çap edilmişdir. Bunlardan 18-i elmi məqalə, 21-i konfrans tezisləridir. Məqalələrdən 12-i respublikadan kənarda nüfuzlu elmi jurnallarda dərc olunmuşdur.

Şöbənin əməkdaşları V.M.Qurbanov, İ.M.Nəbiyev, H.M.Hüseynov, A.S.Şükürov, V.S.Xəlilov, İ.C.Cəfərov, İ.A.İbadova, C.Ə.Osmanlı H.Ə.Əliyevin 90 illiyinə həsr edilmiş Beynəlxalq konfransda, S.Ə.Əliyev Sxidnitsa (Ukrayna) və Borovets (Bolqariya) şəhərlərində keçirilən Beynəlxalq konfranslarda, A.N. Cəbrayılova akademik V.Kupradzenin 110 illiyinə həsr edilmiş Beynəlxalq konfransda (Tbilisi, Batumi) iştirak etmişlər.

Şöbənin əməkdaşı Y.V.Turovski Çin Respublikasının Pekin Texnoloji İnstitutunda elmi ezamiyyətdə olmuş, S.Ə.Əliyev BDU-nun mexanika-riyaziyyat fakültəsində, H.İ.Aslanov isə Gəncə Müəllimlər İnstitutunda Dövlət Buraxılış Attestasiya Kommissiyasının sədri olmuşlar.

Şöbənin əməkdaşları S.Ə.Əliyev, H.İ.Aslanov, İ.A.İbadova "ARDNŞ"-nin qrantını qazanmışlar. Hesabat dövrü ərzində şöbənin bir nəfər əməkdaşı elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. H.İ.Aslanov "AMEA RMİ-nin əsərləri", H.M.Hüseynov "AMEA-nın xəbərləri" jurnalının redaksiya heyətinin üzvləridir. H.İ.Aslanov, V.M.Qurbanov Azərbaycan Prezidenti

yanında AAK-ın riyaziyyat üzrə Ekspert Şurasının üzvüdürlər. S.S.Mirzəyev, H.M.Hüseynov, F.H.Rəhimov AMEA RMİ-də D.01.111-Dissertasiya Şurasının üzvləridir. H.M.Hüseynov Təhsil Nazirliyi nəzdində Metodik Şuranın üzvüdür. Şöbənin əməkdaşları bir çox dissertasiyalara opponentlik etmiş və rəylər vermişlər.

"Funksional analiz" şöbəsi 2013-cü ilin yekunlarına görə aşağıdakı işləri mühüm nəticə hesab etmişlər:

İşlərin adı: 1) К теории квадратичных операторных пучков, ДАН России, 2013, №6, т.453, стр.1-3.

(icraçı: f.-r.e.d. b.e.i. S.S.Mirzəyev)

2) Об аналоге теоремы Рисса и базисность в $L_p$ системы корневых функций дифференциального оператора. I Дифференциальные уравнения, 2013, том 49, №1, с.9-20.

(icraçı: f.-r.e.d. b.e.i. V.M.Qurbanov).

Şöbə müdiri: f.-r.e.d. prof. H.İ.Aslanov